

*Ağayev Mirhəsən Əlibala oğlu Qəbələ rayonu Mirzəbəyli kənd orta məktəbinin müəllimi işləmişdir.*

*1970-ci ildə Şəki pedaqoji texnikumunu bitirmiş, 1985-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi institutunu qiyabi yolla bitirmişdir.*

*3 kitab müəllifidir, ailəlidir, 2 övladı və 5 nəvəsi var. Hazırda təqaüdçüdür.*

*Türkiyə „Anasan„ təmsilçiləri qrupunun üzvü,*

*„Qızıl Qələm„ və „Xarıbülbül„mükafatı laureatı, „İlin vətənpərvər şairi„*

**İLƏ OXŞAYIR**

Sən bir çiçəksən gözümdə mənim,
Səni axtarıram özümdə mənim,
Yalan olmayıbdır sözümdə mənim,
Sözüm kəsərlidir selə oxşayır,
İlimiz düşərli ilə oxşayır.

Sənsizlik çətindir sanki ölürəm,
Gül desən səninlə birgə gülərəm,
Dərdimi-sərimi sənlə bölərəm,
Yayın istisi də çilə oxşayır,
İlimiz düşərli ilə oxşayır.

Mənim nəyim varsa çoxu sənindir,
Kamını mənimdir, oxu sənindir,
Uzaqdan duyduğum qoxu sənindir,
Ətirin verdiyim hilə oxşayır,
İlimiz düşərli ilə oxşayır.

Musiqi dinlədim tarda səninlə,
Birlikdə gəzmişdik qarda səninlə,
Bir dəfə olmuşduq orda səninlə,
Baxıram muğana, milə oxşayır,
İlimiz düşərli ilə oxşayır.

Bu qaranlıq gecəm gündüz görünür,
Üzünüz hər zaman xoş üz görünür
Baxıram o yerlər çox düz görünür,
Atma ayağını lilə oxşayır,
İlimiz düşərli ilə oxşayır.

Sanki təbiət də sənlə yarışır,
Üzündə təbəssüm sənə yaraşır,
Əlindəku güllər yanır, alışır,
O güllər mən verən gülə oxşayır,
İlimiz düşərli ilə oxşayır.

Ürəkdən sevirəm bunu bilirsən,
Qarşılıq olaraq sən də deyirsən,
Sakit və mülayim sən görünürsən,
Yerişin, duruşun nilə oxşayır,
İlimiz düşərli ilə oxşayır.

Səninlə yaşadıq çox gözəl günlər,
Süzülür ağzından hər an nəğmələr,
Dilindən söylənən hər bir kəlmələr,
Dünyada ən şirin dilə oxşayır,
İlimiz düşərli ilə oxşayır.

Səninlə alışdım, səninlə yandım,
Mən səni özümə bir həmdəm sandım,
Bu sevgini sənlə birgə yaşadım,
O mavi gözlərin gölə oxşayır,
İlimiz düşərli ilə oxşayır.

**MUSA YAQUB SƏTİRLƏRİ**

Min rəng qatır sətirlərə,
Musa Yaqub sətirləri,
Bürünübdür ətirlərə
Musa Yaqub sətirləri.

Hər gecə qalırdı oyaq,
Hamıya olmuşdur dayaq,
Kitablarda varaq-varaq,
Musa Yaqub sətirləri.

Cuşa gəlir küləklər də,
Ətir saçır çiçəklər də,
Döyünür hər ürəklərdə,
Musa Yaqub sətirləri.

Ömrünün qocaman çağı,
Gəlir çox yerdən sorağı,
Xatırladır bizə dağı,
Musa Yaqub sətirləri.

Yoxluğuna can üzülür,
Kitablar cərigə düzülür,
Şəlalətək gur süzülür,
Musa Yaqub sətirləri.

Hər sözü namus, qeyrətdi
Yoxluğu bizi göynətdi,
Vətən deməyi öyrətdi,
Musa Yaqub sətirləri.

Qoyduğu təmiz bir izdir,
Mavi gözləri dənizdir,
Nə qədər safdır təmizdir,
Musa Yaqub sətirləri.

Sağlığında görüşdük biz,
Hər an döyünür qəlbimiz,
Yaddan çıxmır yenə sənsiz,
Musa Yaqub sətirləri.

Əsərləri yadigardır,
Dostu, tanışları vardır,
Bizə çox şey xatırladır,
Musa Yaqub sətirləri.

Şeirdə göstərdin hünər,
Gəlir hər yerdən xoş xəbər,
Çox dillərdə olub əzbər,
Musa Yaqub sətirləri.

Sevənlər yanına gəldi,
Şeirlərin dürdü, ləldi,
Düşmənin bağrını dəldi,
Musa Yaqub sətirləri.

Heyran olduq səsinizə,
Təşəkkür edirik sizə,
Yadigardır inan bizə,
Musa Yaqub sətirləri,

Çox ürəkdən sevdik səni,
Sevgi ruhlandırır məni,
Kövrəldir bu Mirhəsəni,
Musa Yaqub sətirləri.

***Nə vaxt qayıdarsan ora bir də bəs?***

Bir axşam danışıb ayrılanda biz,
Görmədi orada bizi heç bir kəs.
O yerlər qalıbdır səssiz-səmirsiz,
Mənimçün olubdur o yer müqəddəs,
Nə vaxt qayıdarsan ora bir də bəs?

Bu sevgiyə mən nə qədər yanaşdım,
Eşq oduna, vallah, yandım, alışdım,
Üzünü görməyə lap çox çalışdım,
Sevgimizdə sən də titrə, sən də əs,
Nə vaxt qayıdarsan ora bir də bəs?

Elə bil sənsizlik sinəmi dəlir,
Sənə qarşı sevgim hər an yüksəlir,
Bu dünya inan ki, mənə dar gəlir,
Bəzən əhvalımı pozursan əbəs,
Nə vaxt qayıdarsan ora bir də bəs?

Doymuram sənintək o şirin yardan,
Qorxum yoxdur ya borandan, ya qardan,
Ayın on dördündə getmişdin ordan,
Bu rəqəm də mənə olub indi nəs,
Nə vaxt qayıdarsan ora bir də bəs?ğ

Baxıram həmişə sağ və soluna,
Uzaqdan açılan əl və qoluna,
Dikilir gözlərim hər gün yoluna,
Bütün təbiətə yayılır bu səs,
Nə vaxt qayıdarsan ora bir də bəs?

Qıyarsanmı gözlərimə nəm dolsun?
Qoyma ki, verdiyim çiçəklər solsun,
Nə olar, səndə bir adamlıq olsun,
Yaransın bu eşqə səndə də həvəs,
Nə vaxt qayıdarsan ora bir də bəs?